MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

**HUMANİTAR ELMLƏR BÖLMƏSİ**

UOT 82-3.512.162

# İLYAS ƏFƏNDİYEVİN ƏDƏBİ YARADICILIĞINDA QARABAĞ MÖVZUSU VƏ İSTİQLAL MOTİVLƏRİ

**Flora Kamran qızı Namazova**
filologiya elmləri doktoru, dosent
Mingəçevir Dövlət Universiteti
flora.namazova@mdu.edu.az

***Xülasə:*** *Məqalə Azərbaycanın görkəmli ədəbiyyat xadimi, nasiri və dramaturqu, Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığına həsr olunmuşdur. Məqalədə yazıçının ədəbi yaradıcılığının ideya xəttini təşkil edən Qarabağ mövzusuna və istiqlal motivlərinə xüsusi diqqət ayrılmışdır. İlyas Əfəndiyevin qələminin məhsulu olan, Qarabağın şanlı və möhtəşəm tarixini əks etdirən "Xurşudbanu Natəvan" pyesinin Azərbaycan milli təfəkküründə qürur hissi yaradan ayrı-ayrı fraqmentlərinin təhlili zamanı yurdumuzun keçmişi və müasir tarixi arasında bir sıra paralellər aparılmış, Azərbaycanın ismət və gözəllik rəmzi sayılan xan qızı Xurşudbanu Natəvanın acı taleyi son əsrlər ərzində Dilbər Qarabağımızın başına gətirilən faciələrlə müqayisəli şəkildə təqdim edilmişdir. Məqalədə, həmçinin İlyas Əfəndiyevin ədəbi yaradıcılığının leymotivini təşkil edən azadlıq və müstəqillik ideyaları ön plana çəkilmiş, yazıçının əsərlərində tərənnüm olunan milli istiqlalın öz sərhədlərini aşaraq Cənubi Azərbaycana, İrana, həmçinin bütün türk dünyasına yayılması ideyasına müasir dünyada cərəyan edən etnik-siyasi proseslər və milli-azadlıq hərəkatı prizmasından qiymət verilmişdir. Nasirin "Cənubi Azərbaycan" mövzusunda qələmə aldığı "Şeyx Xiyabani", "Xəncər" və s. kimi əsərlərdə tərənnüm etdiyi Azərbaycan xalqının inqilab və mücadilə ruhu məqalədə xüsusi intonasiya ilə təqdim olunmuşdur.*

***Açar sözlər:*** *Qarabağ, İlyas Əfəndiyev, milli istiqlal,Cənubi Azərbaycan, İbrahimxəlil xan, Xurşudbanu Natavan, Şeyx Məhəmməd Xiyabani*

## Giriş

Qarabağ tarixi Azərbaycanın ən qədim bölgələrindən biridir. E.ə. IV-III minilliklərdə bu məkanda bu gün tarix elmində *Kür-Araz mədəniyyəti* kimi tanınan ibtidai mədəniyyət mövcud olmuşdur. Bu mədəniyyətin əhatə etdiyi areal Bütün Qafqazı və Yaxın Şərqi (Türkiyənin şərq hissəsini və Cənubi Azərbaycanı) əhatə edirdi. Sözügedən ibtidai mədəniyyəti ilk dəfə sovet arxeoloqu və etnoqrafı *Boris Alekseyeviç Küftin* (1892-1953) tədqiq etmiş və onu daha aydın ifadə olunduğu ərazilərə (Kür-Araz ovalığı) uyğun olaraq "*Kür-Araz mədəniyyəti*" adı altında qeydiyyata almışdı. Böyük Britaniya şərqşünası, Cənubi Qafqaz xalqlarının qədim tarixi üzrə ixtisaslaşan *Devid Marşall Lenq* (1924-1991) "Kür-Araz mədəniyyətini" başqa adla, "Cənubi Qafqazın ilkin tarixi" kimi təqdim etmişdi [1, s. 66-67]. XX əsrin 60-cı illərində Azərbaycanın görkəmli arxeoloqu, akademik Məmmədəli Murad oğlu Hüseynovun (1922-1994) rəhbərliyi altında arxeoloji ekspedisiya yaşı 1 milyon il kimi müəyyən olunan Quruçay mədəniyyətini aşkara çıxardı və tədqiq etdi. Beləliklə, Qarabağ bütün dünyada ilk "*oykumena*"lardan (q.yun. *οἰκουμένη* - məskunlaşdırılmış, - qədim insanlar tərəfindən məskunlaşdırılmış ilk ərazilər) biri kimi tanındı.

Eramızın I-II yüzilliklərində İrandan və Fələstindən gəlmiş dini missionerlərin fəaliyyəti nəticəsində Azərbaycanın şimal bölgələrində, o cümlədən Qarabağda (xüsusilə də onun dağlıq hissəsində) xristian dini ideologiyası yayılmağa başladı. Beləliklə, tarixi Qarabağın ərazisində Qədim Albaniya xristianlığı bərqərar oldu. Erkən orta əsrlərdə Cənubi Qafqazda islam dininin yayılması ilə əlaqədar Yaxin Şərqdən Qafqaz xristian arealına erməni ünüsürləri nüfuz etməsi baş verdi. Nəticədə erməni məlikliklərinin timasalında üzdəniraq erməni amili Qarabağın dinc və xoşbəxt həyatına bu gün də davam edən mürəkkəb münaqişə məzmunu qatdı. 1747-ci ildə

Qarabağın Cavanşir nəslindən olan Pənahəli xan tərəfindən Qarabağ xanlığının yaradılması və onun Azərbaycanın yeni dövr tarixində istiqlal missiyasını icra etməsi Araz sahillərindən Kür çayına qədər uzanan yurdların məzmununa sakral və mistik mahiyyət gətirdi. I və II Rus-İran müharibələrindən sonra ermənilərin İrandan və Osmanlı imperiyasının ərazilərindən kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsindən sonra bu məkanda sülh və əminamanlıq şəraitində yaşayan xalqların həyatında bitib-tükənməyən fəlakətlər və sonu görünməyən faciələr dövrü başlandı. Bundan sonra hüsnü dilbər, lakin bəxti qara olan Qarabağ davamlı münaqişələrin və savaşların meydanına çevrildi. O dövrdən başlayaraq, tariximizin beşiyi sayılan bu müqəddəs məkan xalqımızın qeyrət simvoluna, milli ruhumuzun mənəvi qidasına, həmçinin şairlərin və yazıçıların bədii yaradıcılığının predmetinə, aşıqların və xanəndələrin ifa etdikləri nəğmələrin zilinə, zəngulələsinə, tamaşaların, filmlərin və tarixi əsərlərin əsas süjetinə çevrildi. Bu torpağın yetişdirdiyi düha sürətlə sözlərə, kəlmələrə və təranələrə çevrilərək, milli duyğularımıza axdı, romanlarda və musiqilərdə təntənə ilə ifadə olunaraq milli himnimizə çevrildi və möhtəşəm intonasiya ilə səslənməyə başladı. Bu gün Qarabağ və onunla bağlı müxtəlif aspektlər (hərbi, elm, siyasət, iqtisadiyyat, mədəniyyət, incəsənət və s.) gündəlik həyatımızın əsas motivlərini, qayğılarını və gələvək haqqında arzularımızı təşkil edir. Məhz Qarabağ ideyası və tariximizin şah əsəri olan bu məkana spesifik münasibət bu gün də vətən sevgimizin əsas motivləridir.

**İlyas Əfəndiyevin həyat və yaradıcılığına ümumi baxış**

XIX-XX əsrlər ərzində Azərbaycan elmində, milli ədəbiyyatımızda, aşıq yaradıcılığında və təsviri incəsənətdə Qarabağ mövzusunu və müstəqillik motivlərini tərənnüm etməyən bir müəllifə belə rast gəlmək mümkün deyil. Bu vacib mövzu və motivlər milli mədəniyyətimizin korifeylərindən biri sayılan, Azərbaycanın Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığında da əsas mövzulardan biri olmuşdur. İlk növbədə, qeyd edək ki, əslən Qarabağ bölgəsindən olan İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il mayın 28-də Füzuli şəhərində anadan olmuşdur. Yazılı məlumatlara görə, ulu babalarının bir qolu Qarabağda tacir nəslinin, digər bir qolu isə ruhani zümrəsinin mənsubları olmuş, xeyriyyəçi əməlləri və alicənab davranışları sayəsində bütün məmləkətdə ad çıxarmışdılar. İlyas Əfəndiyevin nəsil şəcərəsində çoxlu sayda görkəmli şəxsiyyətlər olmuş və onlar milli dövlətçiliyimizin inkişafına əhəmiyyətli töhfələr vermişlər. Yazıçının ata tərəfdən babası Kərim Əfəndiyev kənd mirzəsi olmuş və oğullarını (Məhəmməd – İlyas Əfəndiyevin atası, Həsən – Zaqatalada və Ağdaşda müəllimlik etmişdi, Paşa – əvvəlcə Qəbələnin Bum kəndində, daha sonra isə Çuxur Qəbələdə dərs demişdi) Qori seminariyasında oxutmuşdu. Ana babası Bayram bəy isə dövlət idarələrində məmur olmuş, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə Şuşada qəza rəisi vəzifəsində çalışmışdı. Anası Bilqeyiz xanım da humanitar savadı olan, Azərbaycan və dünya ədəbiyyatının inciləri sayılan əsərləri mükəmməl bilən qadın olmuşdur. İlyas Əfəndiyevin ədəbiyyata marağı da məhz anasının ona aşıladığı humanist dəyərlərdən bəhrələnmişdi.

Ədibin atası Məhəmməd bəy (1878-1941) 1896-cı ildə Qori seminariyasını bitirdikdən sonra 1896-1941-ci illərdə əvvəlcə Qəbələnin Vəndan kəndində, daha sonra Qaryagin (indiki Füzuli rayonu) qəzasının Hadrut kəndində, 1900-1915-ci illərdə Oğuz (Vartaşen) rayonunun Xaçmaz və Çuxurqəbələ (o vaxt Çuxurqəbələ Oğuzun kəndi idi) kəndlərində, Qəbələ (o vaxt Qutkaşen) rayonunun Hacalı kəndində müəllimlik etmiş, 1918-1929-cu illərdə Göyçayda və Ağdaşda Maarif şöbələrinə, 1929-1941-ci illərdə isə Göyçay Pedaqoji texnikumuna rəhbərlik etmişdi. Təhsildə və xalqın maariflənmdirilməsində göstərdiyi böyük xidmətlərə görə, 1934-cü ildə "Əmək qəhrəmanı" fəxri adına layiq görülmüş, orden və medallarla təltif edilmişdir. XX əsrin 30-cu illərində "kulak" damğası vurulan Məhəmməd Əfəndiyev tənqidlərə və təqiblərə məruz qalmış, işini itirərək ciddi maliyyə çətinlikləri yaşamış və 1941-ci il ildə vəfat etmişdi (digər bir versiyaya görə İlyas Əfəndiyevin atası 1934-cü ildə vəfat etmişdi). Bütün bunlar və sonralar yaşadığı çətinliklər İlyas Əfəndiyevin dünyagörüşünə və bədii yaradıcılığına həlledici təsir göstərmişdi. Atası və əmiləri kimi müəllimlik sənətinə fövqəladə marağı olan gənc İlyas Əfəndiyev sözügedən sahədə ali təhsil almaq məqsədi ilə 1933-cü ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olur. 1938-ci ildə ali təhsil müəssisəsini bitidikdən sonra Bakıda "Ədəbiyyat qəzeti", "Yeni yol" və digər qəzetlərin

redaksiyalarında çalışır və onun yazıçılıq fəaliyyəti də o vaxtdan başlayır. Yazıçı ilk dəfə öz qələminin gücünü 1938-ci ilin noyabr ayında "Buruqlar arasında" oçerki ilə yoxlayır, "Berlində bir gecə" adlı ilk hekayəsi artıq II Dünya müharibəsi ərəfəsində 1939-cu il 26 yanvar tarixində "Ədəbiyyat qəzetində" dərc olunur. Yazıçının 1939-cu ildə nəşr olunan "Kənddən məktublar" adlı kitabı isə Azərbaycan ədəbiyyatında "yeni bir ulduzun doğması" faktı kimi qiymətləndirilmişdi. Bundan sonra İlyas Əfəndiyevin qələminin məhsulu olan hər əsər onun orijinal ifadə tərzini, ədəbi və estetik dünyagörüşünün səviyyəsini nümayiş etdirirdi [6, s. 22-23].

Azərbaycan ədəbiyyatının ölməz korifeylərindən biri kimi İlyas Əfəndiyevin möhtəşəm fəaliyyətində "ulduz saatı" 1943-cü ildə Azərbaycanın digər bir görkəmli yazıçısı, dramaturqu və tənqidçisi, 1958-1965-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin sədri olan Mehdi Hüseyn ilə (Mehdi Əli oğlu Hüseynov – 1909-1965) birlikdə "İntizar" adlı pyesi yazdıqdan sonra gəlib çatdı. Bundan sonra yarım əsr ərzində yazıçının əsərləri Azərbaycanın teatrlarında tamaşaya qoyuldu, onun aktual məzmun kəsb edən pyesləri ("Atayevlər ailəsi", "Bahar suları", "İşıqlı yollar", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Qəribə oğlan", "Bağlardan gələn səs", "Mahnı dağlarda qaldı", "Məhv olmuş gündəliklər" və s.) teatrların repertuarında ən populyar adlar olmuşdu. İlyas Əfəndiyev yaradıcılığının ən gözəl nümunələri sayılan "Söyüdlü arx", "Körpüsalanlar", "Sarıköynəklə Valehin nağılı", "Üçatılan", "Geriyə baxma qoca" və s. adlı nəsr əsərləri isə XX əsr Azərbaycan oxucusunun stolüstü kitablarına çevrilmişdi [2, s. 55-68]. Müasir Azərbaycan ədəbiyyatında özünün dəsti-xəttilə seçilən İlyas Əfəndiyev bu gün də aktuallığını itirməmiş əsərlərində ümumbəşəri dəyərləri tərənnüm edir, onun povestlərinin, romanlarının, pyeslərinin və hekayələrinin qəhrəmanları həm oxucunun həm də tamaşaçının yaddaşında təmiz niyyətli, dözümlü və qətiyyətli şəxsiyyətlər, xeyirxah əməllərin sahibi olan, humanist və ülvi məqsədlərə xidmət edən mübariz insan obrazları kimi həkk olunurdu. Beləliklə, İlyas Əfəndiyevin bədii yaradıcılığının qızıl xəttini böyük ürək və unikal xarakter sahibi olan insanın ədalət və həqiqət uğrunda mübarizəsi təşkil edirdi.

Azərbaycan ədəbiyyatının məzmununa parlaq şəkildə ifadə olunan millilik gətirmiş, öz əsərlərinin tənqidi və yaradıcı gücü ilə üzdəniraq sosializm ideyalarının diqtəsi altında ömür sürməyə məhkum edilmiş Azərbaycan insanının dünyagörüşündə pozitiv korrektivlər etmiş İlyas Əfəndiyevin ədəbi-bədii yaradıcılığında milli-azadlıq hərəkatını tərənnüm edən süjetlər, istiqlal motivləri və Qarabağ mövzusu xüsusi yer tuturdu. Milli dəyətlərin çarçısı kimi tanınan yazıçı əsərlərində sovet ideologiyasını təbliğ və mədh edən mövzulardan və süjetlərdən imtina edir və yaradıcılığında sovet totalitar rejimi tərəfindən qadağan olunmuş mövzulara ("Cənubi Azərbaycan", "mühacirət" və s.) müraciət etməkdən qorxmurdu. "Tənha iydə ağacı" pyesi ilə İlyas Əfəndiyev XX əsr Azərbaycan ədəbiyyatı tarixində birinci dəfə Azərbaycan mühacirləri mövzusuna müraciət etmiş, "Şeyx Məhəmməd Xiyabani" tarixi dramında Cənubi Azərbaycan mövzusunu emosional-psixoloji səviyyədə təsvir etmiş, "Xurşudbanu Natəvan", "Hökmdar və qızı" dramlarında isə Qarabağ tarixini və bu tarixi yaradan insanların taleyini milli mentalitet müstəvisinə çıxararaq, onları Azərbaycanlı ruhunun və türk yaddaşının unikal əlamətləri kimi tərənnüm etmişdir.

**İlyas Əfəndiyevin ədəbi yaradıcılığında Qarabağ mövzusu**

Dilbər Qarabağ elə bir güc mənbəyidir ki, sirlərini yalnız onun təbiətdən aldığı yaradıcı ruha adekvat olan etnik kimliklərə açır və bu kimliklərin adı türk və Azərbaycanlıdır. Başqa etnik kimliklərə isə Qarabağın sirli dünyası həmişə sirr olaraq qalıb və qalacaq. Bu müqəddəs məkanın iqlim şəraitinin, billur kimi təmiz suyunun və havasının yaratdığı zənguləni, muğamı və segahı dünyada heç bir xalqın səs telləri icra edə bilmir. Quran avazı kimi dildən qəlblərə və könüllərə süzülən Qarabağ şikəstəsini də yalnız damarlarında Azərbaycanlı və türk qanı axan, ruhunda türk və Azərbaycanlı çırağı yanan insan duya bilir. Bu torpaq və yurd haqqında qəlbləri riqqətə gətirən poemaları, romanları, povestləri və dramatik əsərləri də ona könüldən və candan bağlı olan yaradıcı şəxsiyyətlər ərsəyə gətirə bilir. Bu şəxsiyyətlərdən biri də İlyas Əfəndiyevdir. İlyas Əfəndiyevin Qarabağa olan ülvi məhəbbəti və taleyinə faciələr yazılmış bu yurd haqqında düşüncələri və qayğıları onun yaradıcılığında qızıl xətlə təsvir olunmuşdur. Lakin milli tariximizin və ədəbiyyatımızın əzəli və əbədi mövzusu statusu qazanmış Qarabağ haqqında və Azərbaycan

xalqının milli-azadlıq hərəkatı barədə fundamental yaradıcılıq aktı öz parlaq ifadəsini yazıçının 1980-ci ildə qələmə aldığı “Xurşudbanu Natəvan”, 1986-cı ildə yazılmış “Şeyx Xiyabani” və 1994-cü ildə yazılmış “Hökmdar və qızı” əsərlərində tapmışdı.

“Xurşudbanu Natəvan” pyesini yazmaqla İlyas Əfəndiyev təlatümlərələ dolu XX əsrin 80-ci illərində Qarabağda özlərini ağa kimi aparmağa çalışan ermənilərə mesaj göndərir və bu yurdun kimlərə məxsus olmasını, ermənilərin Qarabağa nə vaxt, haradan və necə gətirildiyini xatırladırdı. Bu əsər həm də 80-ci illərin əvvəllərində artıq gizli şəkildə aktivləşməyə başlayan və üzdəniraq “*Miatsum*” (“birləşmə”, - Azərbaycana, bütövlükdə isə Cənubi Qafqaza olmazın fəlakətlərini gətirən təcavüzkar erməni ideologiyası, - Qarabağın Ermənistana birləşdirilməsi kimi sərsəm tələblərə və boş çağırışlara əsaslanırdı) ideyası ətrafında birləşərək Azərbaycanın tarixi ərazilərinə qəsd etməyə hazırlaşan ermənilərin sərsəm iddilarına sanballı cavab idi. Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, XX əsr ərzində (sovet dövründə) Qarabağda yaşayan ermənilər Qarabağın Ermənistana birləşdirilməsi tələbi ilə dəfələrlə qiyam qaldırmış, lakin hər dəfə mərkəzin (sovet rəhbərliyinin) dəstəyini qazana bilmədikləri üçün geri çəkilməyə məcbur olmuşdular. London iqtisadi və siyasi elmlər məktəbinin (B.Britaniya), Corc Vaşinqton adına universitetin və Miçiqan universitetinin professoru *Vladislav Martinoviç Zubkovun* (16 aprel 1958) 2007-ci ildə ingilis dilində qələmə aldığı “Baş tutmamış imperiya: Sovet ittifaqı Soyuq müharibə dövründə – Stalindən Qorbaçova qədər” (ing. *A Failed Empire: the Soviet Union in the Cold War from Stalin to Gorbachev*) adlı əsərində Qarabağda yaşayan ermənilərin 1945, 1963, 1977 və 1983-cü illərdə törətdikləri qarışıqlıqlardan bəhs edir və erməni separatizminin necə bir ciddi təhlükə olmasını açıb göstərir [8, s. 58]. Bütün bu hadisələrin şahidi olan İlyas Əfəndiyevin ermənipərəst sovet rejiminə qarşı münasibəti kəskin şəkildə dəyişmiş və Qarabağ mövzusu onun ədəbi yaradıcılığında prinsipial mövzuya çevrilmişdi.

Sovet dönəmində tarix elminin nomenklaturaya tabe etdirilməsi, milli tariximizin israrla təhrif olunması, üzdəniraq sosialist beynəlmiləlçiliyinin az qala sarsılmaz qardaşlıq aktı kimi təqdimatı digər vətənpərvər, millətsevər ədiblərimiz kimi İlyas Əfəndiyevdə də neqativ hisslər oyadırdı. Erməni xislətinə yaxşı bələd olan yazıçı onun gec-tez Cənubi Qafqazda böyük bir fəlakət törədəcəyini görür və Qarabağ tarixinə həsr etdiyi bədii-tarixi əsərlərində Azərbaycan insanını ayıq olmağa, öz tarixi irsinə, mədəni dəyərlərinə, dövlətçilik, yurdçuluq ənənələrinə sahib olmağa çağırırdı.

Qarabağa həsr etdiyi əsərlərində İlyas Əfəndiyevin sosialist realizmi üslubunda süjetdən imtina etməsi, xan və xan qızı obrazlarını seçməsi də təsadüfi deyil. Yazıçı bununla da tənqidi düşünməyin və olaylara adekvat qiymət verməyin vaxtının gəldiyi haqqında cəmiyyətə siqnal göndərirdi. Qarabağ hökmdarlarının, onların (Pənahəli xan, İbrahimxəlil xan, Mehdiqulu xan, Xurşudbanu Natəvan) nəsillərinin həyat tarixini müzakirə predmetinə çevirməklə, dolayı yolla XVIII-XIX əsrlərdə rus-erməni irticasının Qarabağ xanlığının timsalında formalaşmaqda olan Azərbaycan dövlətçliyini necə məhv etməsini milli oyanış dövrünə qədəm qoymuş üsyankar Azərbaycanlının diqqətinə çatdırırdı. Qeyd etmək lazımdır ki, totalitar sovet rejiminin qılınc oynatdığı XX yüzilliyin 80-ci illərinin əvvəllərində inqilab qoxusu gələn belə bir mövzuya müraciət edilməsi çox böyük cürət tələb edirdi.

İlyas Əfəndiyev XX əsrin 80-ci illərinin əvvəllərində “Xurşudbanu Natəvan” adı altında Qarabağ mövzusunu “bestsellerə” (ing. *Bestseller* - dəbdə olan, yaxşı satılan, - populyar əsər, və ya kitab mənasında işlənilir) çevirməklə Azərbaycan teatrının repertuarını zənginləşdirmək məqsədi güdmürdü. Dərin ideoloji məzmun kəsb edən bu əsərdə Natəvanın dili ilə oxucuya və tamaşaçıya çatdırılan hər bir kəlmə, bütövlükdə isə şairə, qadın və xan qızı obrazı XIX əsrdə təcavüzə məruzə qalmış Azərbaycanın haqq səsi, ermənilərə təhvil verilmiş dilbər Qarabağın dağlıq hissəsinin azadlığa çağıran fəryadı idi. Xurşudbanu Natəvanın taleyi ilə Qarabağın taleyi arasında paralellər edən İlyas Əfəndiyev xan qızını Qarabağ ellərinin xan nəslini təmsil edən namus rəmzi, erməni və rus tapdağına düşən Dilbər Qarabağdan miras qalmış ülvi təmizlik kimi tədqim edirdi. O, xan qızının dili ilə Qarabağa və burada əsrlərlə yaşayan türk etnosuna qarşı təcavüzü həyata keçirən düşməni lənətləyirdi. Qarabağın bətnində yetişmiş inci sayılan xan qızı Natəvanın yaşadığı acı

taleyə nəzər salanda orada Qarabağ ellərinin XIX yüzilliyin əvvəllərindən bu yana yaşadığı taleyin təsvirini görə bilərsən. Xurşudbanu Natəvan Cavanşir-Usmiyeva dünyaya gələndə (1832, 6 avqust) artıq II Rus İran müharibəsi başa çatmış, Dilbər Qarabağda səfil ermənilər yerləşdirilmiş, atası Mehdiqulu xan Kürəkçay müqaviləsinin (1805, 14 may) şərtlərinə görə, Rusiyadan vassal asılılığı vəziyyətində yaşayır və onun Qarabağda hakimiyyəti nominal xarakter daşıyırdı. 1841-ci ildə atası Mehdiqulu xanın vəfatından sonra bibisi Gövhər ağa (əsl adı Gövhərnisə bəyim – 1790-1888, 1806-1814-cü illərdə XI Şəki xanı Cəfərqulu xan Xoyskinin həyat yoladaşı olmuşdu. 1814-cü ildə Cəfərquqlu xanın vəfatından sonra Şuşaya qayıtmış və Xankişi bəy adlı çox varlı bir şəxsə ərə getmişdi. Qarabağ tarixində xeyriyyəçi kimi məşhurlaşan Gövhər ağa XIX əsrin son rübündə Şuşada "Aşağı Gövhər ağa məscidi" kimi tanınan cümə məscidini inşa etdirmiş, İbrahimxəlil xanın dövründə inşa edilən digər bir məscidi, hazırda "Yuxarı Gövhər ağa məscidi" adlanan məscidi isə təmir etdirmişdi) ilə birlikdə zamanın qəddar hökmü qarşısında ölüm-dirim mücadiləsi aparmalı olmuşdu. Qeyd etmək lazımdır ki, Xurşubanu Natəvanın tərbiyə olunmasında, savadlı, əxlaqlı və vətənpərvər bir xanım olaraq yetişməsində Gövhər ağanın həlledici rolu var idi. Qarbağlıların əsrarəngiz Qarabağı "*Dilbər*" deyə adlandırdıqları kimi Xurşudbanu Natəvanı da "*Tək inci*" (fars."*Dürrü yekta*") deyə çağırırdılar. Atasının vəfatından sonra Xurşudbanu Ağsaylı qumuq əsilzadəsi Musa xan Usmiyevin oğlu Xasay xan Usmiyevə (1808-1866) ərə getməyə məcbur olmuş və Tiflisə köçmüdü. Ərinin vəfatından sonra Şuşaya qayıtmış və ikinci dəfə 1869-cu ildə rəiyyət içərisindən çıxan Seyid Hüseyn adlı Şuşalı ilə ailə qurmuşdu. Qarabağ zadəganları xan qızının bu hərəkətini qınaq obyektinə çevirmiş və o, ömrünün sonuna qədər tənələrdən yaxa qurtara bilməmişdi. 1897-ci il oktybar ayının 1-də 65 yaşında dünyasını dəyişən xan qızı Xurşudbanu Ağdamın məşhur "İmarət" qəbirstanlığında dəfn olunmuşdur. Qarabağın qara taleyinə lənət kimi yazılmış erməni vandalları tariximizin yadigarı olan Gülüstan Qarabağa dağ çəkdikləri kimi onun qüdrət və hakimiyyət rəmzi, müstəqilliyimizin və dövlətçiliyimizin xatirəsi sayılan "Xan məzarlığı"na da "divan tutmağı" unutmamışdılar. 2020-ci ilin payızında torpaqlarımızın düşmən işğalından azad edilməsindən sonra məlum olmuşdu ki, ermənilər vandalları xan qızı Natəvanın məqbərəsini dağıtmış, məzarını təhqir etmiş, hətta sümüklərini qəbirdən çıxararaq aparmışlar [7, s. 2].

Xurşudbanu Natəvanın acı taleyi haqqında qısa tanışlıqdan sonra məlum olur ki, nədən İlyas Əfəndiyev və Azərbaycanı öz canı kimi sevən yazıçılarımız üçün Qarabağ mövzusu belə önəmlidir. Qeyd etmək lazımdır ki, İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə olaraq xan qızı Natəvanın timsalında qadın obrazından tarixi daram janrında yazılmış əsərin baş qəhrəmanı kimi istifadə etmişdi.

"Xurşudbanu Natəvan" pyesini qələmə alarkən İlyas Əfəndiyev özünün doğulduğu və yaşadığı dövrdən əvvəlki əsrdə baş vermiş tarixi hadisələri onlara spesifik ruhani məzmun və XX əsrin 80-ci illərində baş verən reformasiyalara uyğun yenilikçi ruh qatırdı. Yazıçı xan qızı Natəvanı süquta uğramış bir dövlətin (Qarbağ xanlığının) elit zümrəsinin nümayəndəsi, xüsusi qəddarlıqla qətlə yetirilmiş hökmdarın (İbrahimxəlil xanın) nəvəsi və siyasi iradəsi əlindən alınmış hökmdarın (Mehdiqulu xan) qızı olaraq təqdim etməklə, həm də yurdunun və ailəsinin yaşadığı acıları onun faciəli obrazında böyük ustalıqla canlandırır. Bütün müqəddəs və təmiz duyğuların insanı olan Azərbaycan qadınının ruhani-mənəvi gücünü, atasız, himayədarsız və müdafiəsiz qalsa da, mücadilə ruhunu itirməyən bir qəhrəman kimi təsvir edir. Əsərdə xan qızı Natəvanın Qafqaz canişini ilə görüşdə nümayiş etdirdiyi diplomatik qabiliyyət xüsusi diqqət cəlb edir. Canişin ondan,- "Bu qədər torpaq sənin nəyinə lazımdır?", - soruşanda xan qızı belə cavab verir: "Mənim xalqım var..." [5, s.184]. Doğma xalqının taleyinə acımaq, onun rifahı və gələcəyi haqqında düşünmək doğrdan da Xurşudbanu Natəvanın həyat kredosu, onu hökmdar ailəsinin nümayəndəsi kimi sadə insanların gözündə ucaldan ideal olmuşdur. Rəiyyəti təmsil edən Seyid Hüseyn adlı şəxsə ərə getməsi və nə qədər tənələrə və qınaqlara məruz qalsa da bu işdən peşmanlıq çəkməməsi aristokrat ruhlu bu xanımın o dövrün əxlaqı üçün böyük qəbahət sayılan sosial bərabərliyə və tolerantlığa necə yüksək qiymət verməsini sübuta yetirir. İlyas Əfəndiyev "Xurşudbanu Natəvan" pyesinin əvvəlində xan qızının dili ilə əsərin əsas ideyasını təqdim edərkən "insan xoşbəxtliyini onun öz vətəninə və

ləyaqətinə sahib çıxması aktı" elan edir. Yazıçının xüsusi pafosla təqdim etdiyi bu ideya isə tariximizin bütün dövrlərində aktual olmuş və bu gün də aktualdır.

**İlyas Əfəndiyevin ədəbi yaradıcılığında istiqlal motivləri**

XX yüzilin 80-ci illərinin ortalarında dünyada baş verən ictimai-siyasi və etnik-mədəni hadisələrin təsiri altında İlyas Əfəndiyevin dünyagörüşündə çoxdan kök salmış, lakin konkret səbəblər ucbatından bədii yaradıcılığın predmetinə çevrilməsi bilməmiş ideyaların intibahı baş verirdi.1978-79-cu illərdə baş vermiş İran İslam inqilabı və 1925-ci ildən İrana rəhbərlik edən Pəhləvi rejiminin süquta uğraması (1979-cu il 16 yanvar tarixində 1941-ci ildən İran dövlətinə rəhbərlik edən Məhəmməd Rza şah Pəhləvinin Tehranı tərk edərək Misirə qaçması) Cənubi Azərbaycanda və İranda yaşayan milyonlarla Azərbaycan türkünün azadlığa, istiqlaliyyətə və mədəni muxtariyyətə olan ümidlərini artırdı. Belə bir şəraitdə Cənubi Azərbaycan mövzusu həm İran ədəbiyyatında (türk kökənli yazıçıların əsərlərində), həm də sovet Azərbaycanında yenidən və daha geniş müstəvidə gündəmə gəldi. O dövrdə artıq çox qiymətli əsərləri ilə tək Azərbaycanda deyil, həm də bütün keçmiş SSRİ məkanında, İranda, Türkiyədə və Avropada məşhurlaşmış İlyas Əfəndiyev dinamik şəkildə cərəyan edən qlobal tendensiyaların fonunda "Cənubi Azərbaycan" mövzusunu ictimailəşdirmək üçün Azərbaycan xalqının milli-azadlıq hərəkatına müraciət etdi və Türkmənçay müqaviləsi (1828) nəticəsində əsrlərlə bütöv yaşayan xalqın parçalanmasından sonra baş vermiş ilk möhtəşəm milli-azadlıq mücadiləsini - Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında 1917-1920-ci illərdə baş vermiş inqilabi hərəkatı seçdi. Qeyd edək ki, Cənubi Azərbaycanda yaşayan Azərbaycanlıların azadlıq və müstəqillik məsələsi bu gün də fövqəladə aktuallıq kəsb etməkdədir.

İlyas Əfəndiyev 1986-cı ildə qələmə aldığı "Şeyx Xiyabani" pyesində fars ideologiyası tərəfindən dini hərəkat kimi qiymətləndirilən Şeyx Məhəmməd Xiyabaninin rəhbərliyi altında 1917-1920-ci illərdə baş vermiş inqilabi hərəkatı Azərbaycan xalqının milli-azadlıq hərəkatı kimi təqdim edir və Xiyabaninin dili ilə söylədiyi sözlərlə ("Ey qüdrətli Azərbaycan xalqı! Ey azadlıq uğrunda çarpışan mücəhidlər! Bu alqışlar verdiyin qurbanların səsidir") bu möhtəşəm tarixi faktı sübuta yetirir.

İlyas Əfəndiyevin "Cənubi Azərbaycan" mövzusunda yazdığı daha bir əsər "Xəncər" hekayəsidir. Hekayədə yazıçı XIX-XX əsrlərdə Cənubi Azərbaycanda baş vermiş üsyanları və inqilabi hərəkatları ümumiləşdirilmiş şəkildə təqdim edir və onların bədii-xronoloji təsvirini verməklə yanaşı oxucuda yüksək vətənpərvərlik hissi yaradan incə detalları da təsvir etməyi unutmur. Hekayədə 1945-ci il dekabr ayının 12-də (21 Azər hərəkatı) Seyid Cəfər Pişəvərinin (Cavadzadə) rəhbərliyi altında Təbrizdə Milli Hökumətin yaradılması və Azərbaycanın siyasi müstəqilliyinin elan edilməsinə xüsusi diqqət ayrılır. Milli Hökumətin mövcud olduğu 1 il (12 dekabr 1945 – 12 dekabr 1946) ərzində Təbrizdə, Ərdəbildə, Urmiyada və digər Azərbaycan şəhərlərində fars dilində yazılmış lövhələrin, reklamların və digər yazıların yığışdırılmasını və onların Azərbaycan dilində tərtib edilmiş lövhələrlə əvəz olunmasını, küçələrin adlarının milli məzmunda dəyişdirilməsini, insanların onlarda qurur yaradan ifadələri (ana dili, Azərbaycan, milli hökumət və s.) öz ana dillərində böyük zövqlə və məmnunluqla ifadə etmələrini böyük duyğularla və yüksək vətənpərvərlik ruhunda ifadə edən İlyas Əfəndiyev gənc Azərbaycanlı oğlanın dili ilə "Yaşasın Azərbaycan" çağırışını etməklə, bir növ Vahid Azərbaycana gələcək mücadilələrin daha şiddətli olacağı haqda xəbərdarlıq edir və Azərbaycan istiqlalının yaxın vaxtlarda reallığa çevriləcəyi anonsunu verirdi [3, s. 275].

İlyas Əfəndiyevin sonuncu dram əsəri 1994-cü ildə qələmə aldığı "Hökmdar və qızı" pyesi idi. Azərbaycan xalqının erməni təcavüzünə qarşı mübarizə apardığı bir dövrdə yazılmış əsər dövrün inqilabi və mücadilə ruhunu parlaq şəkildə ifadə edirdi. Faciə janrında yazılmış "Hökmdar və qızı" pyesində 1806-cı il 12 iyun tarixində İbrahimxəlil xanın 17 nəfər ailə üzvü ilə birlikdə rus ordusunun mayoru Lisaneviç tərəfindən hazırlanmış sui-qəsd nəticəsində qətlə yetirilməsini yazıçı Azərbaycan istiqlalına və Azərbaycan xalqının müqəddəs dəyərlərinə sui-qəsd kimi qiymətləndirir və onun məzmununda erməni-rus irticası nəticəsində məqsədyönlü şəkildə həyata keçirilən soyqırım motivlərinin olduğunu sübuta yetirir [4, s. 436]. Qeyd edək ki, "Hökmdar və qızı"

pyesinin motivləri əsasında 2008-ci ildə Ramiz Fətəliyevin rejissorluğu ilə “Hökmdarın yaleyi” adlı film də çəkilmişdir.

**Nəticə**

Xalqımızın böyük oğlu, xalq yazıçısı İlyas Məhəmməd oğlu Əfəndiyevin xalq və dövlət qarşısında böyük xidmətləri yüksək səviyyədə qimətləndirilmiş və onun ədəbi yaradıcılığının Azərbaycan Ədəbiyyatı tarixində tutduğu layiqli yer və oynadığı misilsiz rol qeyd edilmişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev İlyas Əfəndiyevin yardıcılığına xüsusi diqqət ayırmış, Ulu Öndərin sərəncamı ilə İlyas Əfəndiyevin yaradıcılığının külliyatı 7 cilddən ibarət “Seçilmiş əsərlər” toplusunda çap edilmişdir. Görkəmli ədibin yaradıcılığını layiqincə qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamına uyğun olaraq, həmin il ölkəmizin hər yerində İlyas Əfəndiyevin 100 illik yubileyi böyük təntənə ilə qeyd edilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Берни Ч.А., Лэнг Д.М. ДревнийКавказ. От доисторических поселений Анатолии до христианских царств раннего Средневековья / Пер. с англ. Л.А. Игоревского. - М.: ЗАО Центрполиграф, 2016. - 383 с. - с. 66-67

2. İlyas Əfəndiyev: biblioqrafiya / tərt. G.Səfərəliyeva; red. və bur. məsul K.Tahirov; ön söz. müəl. Ş. Alışanlı; Azərbaycan Milli Kitabxanası. - Bakı, 2014. c. 58-65, - 512 s.

3. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. 7 cilddə, V cild. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya mərkəzi. – 2007. – 275 s.

4. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. 7 cilddə, II cild. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya mərkəzi. – 2005. – 436 s.

5. İlyas Əfəndiyev. Seçilmiş əsərləri. 7 cilddə, II cild. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya mərkəzi. – 2005. – 184 s.

6. Tağısoy N.T. İlyas Əfəndiyevin belletristikası: təhkiyə texnikası, narrativ instrumentariləri. // Ədəbiyyat qəzeti, 01.07.2019. Bakı, - 2019. - s. 22-23

7. Tofiqli Vüqar. “Ağdamın “İmarət”li günləri... [“Imarat” days of Aghdam…]. 525-ji gazet (az) 17 April 2012. səh. 2

8. Vladislav Martinovich Zubok. A failed empire: the Soviet Union in the Cold War from Stalin to Gorbachev. - UNC Press, 2007. - c. 58. - 467 c.

## THE KARABAKH THEME AND MOTIFS OF INDEPENDENCE IN THE WORKS OF ILYAS EFENDIYEV

**F.Namazova**
Doctor of Philological Sciences, Associate Professor
Mingachevir State University

***Abstract:*** *The article is devoted to the work of the outstanding literary figure, playwright and prose writer, People's Writer of Azerbaijan Ilyas Efendiyev. In the article, a special place is given to the theme of Karabakh and the motives of independence, which in the writer's work had the main ideological and artistic line. In the process of sequential analysis of individual fragments of the play “Khurshudbanu Natavan”, as one of the brightest examples in the work of Ilyas Efendiev, reflecting the magnificent and glorious history of his native Karabakh, some parallels were made between the past and the present of our homeland. The bitter fate of Khurshudbanu, the daughter of the Karabakh Khan, who has become a symbol of purity and piety, is presented in a comparative description with the history of sacred Karabakh, which survived many troubles and tragedies. The article also brings to the fore the ideas of freedom and independence, which are the main motive of Efendiev's work. Through the prism of the national liberation struggle of the people, glorified in the writer's works, appropriate assessments are given to the process of national independence, which*

*overcame all borders and spread throughout Azerbaijan, Iran and the Turkic world. The revolutionary and fighting spirit described in all the works of the writer, especially in such as "Sheikh Khiyabani", "Dagger", etc. presented in a different light and sounds in a specific intonation.*

***Keywords:*** *Karabakh, İlyas Efendiev,national sovereignty, Ibrahimkhalil khan, South Azerbaijan, Khurshudbanu Natavan, Shrikh Mohammed Khiyabani*

## КАРАБАХСКАЯ ТЕМА И МОТИВЫ НЕЗАВИСИМОСТИ В ТВОРЧЕСТВЕ ИЛЬЯСА ЭФЕНДИЕВА

**Ф.К.Намазова**
доктор филологических наук, доцент
Мингячевирский государственный университет

***Резюме:*** *Статья посвящена творчеству выдающегося литературного деятеля, драматурга и прозаика, Народного писателя Азербайджана Ильяса Эфендиева. В статье особое место уделено теме Карабаха и мотивам независимости, которые в творчестве писателя имели основную идейную и художественную линию. В процессе последовательного анализа отдельных фрагментов пьесы «Хуршудбану Натаван», как одного из ярких образцов в творчестве Ильяса Эфендиева, отражающей великолепную и славную историю родного Карабаха сделаны некоторые параллели между прошлым и настояциям нашей родины. Горькая судьба Хуршудбану – дочери Карабахского хана, ставшей символом чистоты и благочестия представлена в сравнительном описании с историейсвященного Карабаха, пережившего множества бед и трагедий. В статье, также на передний план выставлены идеи свободы и независимости, составляющие основной мотив творчества Эфендиева. Через призму национально-освободительной борьбы народа, воспетой в произведениях писателя, даны соответствующие оценки тому процессу национальной независимости, который преодолел все границы и распространился во всем Азербайджане, Иране и в тюркском мире. Революционный и борцовский дух, описанный во всех произведениях писателя, особенно в таких, как «Шейх Хиябани», «Кинжал» и т.д. представлен в ином свете и звучит в специфической интонации.*

***Ключевые слова:*** *Карабах, Ильяс Эфендиев, национальный суверенитет, Южный Азербайджан, Ибрагимхалил хан, Хуршудбану Натаван, Шейх Мухаммед Хиябани*

**Elmi redaktor: fil.f.d., dos. N.Manafov**
**Çapa təqdim edən redaktor: t.f.d., dos. N.Zeynalov**
**Daxil olub: 10.01.2023**
**Çapa qəbul edilib: 17.01.2023**